*“Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 iyun 2015-ci il № 43 (1959) Qiyməti 25 qəpik

## Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

2015-ci ildə Azərbaycan milli mətbuatının yaranmasının 140 ili tamam olur.

XIX əsrin ortalarında ölkəmizdə gedən siyasi, iqtisadi və mədəni proseslər maarifçilik hərəkatının inkişafına, ictimai fikrin yeni ifadə vasitəsi olan mətbuatın meydana gəlməsinə şərait yaratmışdır. 1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi kimi öz adını tarixə yazmışdır. Qəzet dövrün qabaqcıl ideyalarını təbliğ etmiş, insanları dini mövhumata və cəhalətə qarşı mübarizəyə çağırmış, ictimai-siyasi və bədii düşüncənin inkişafına güclü təsir göstərmişdir. "Əkinçi"nin bəyan etdiyi prinsipləri rəhbər tutan və onun ənənələrini davam etdirən Azərbaycan mətbuatı sonrakı illərdə dövrün mütərəqqi fikirlərini əks etdirmiş, cəmiyyəti düşündürən məsələləri ictimai müzakirəyə çıxarmış, milli mənəvi dəyərlərin təbliğində, insanların maariflənməsi və milli şüurun formalaşmasında, xalqımızın müstəqillik arzularının gerçəkləşməsində mühüm rol oynamışdır.

Ötən yüzilliyin sonlarında Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır. 1993-cü ildə yenidən hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyev demokratik inkişafı, vətəndaş cəmiyyəti quruculuğunu dövlət siyasətinin başlıca istiqaməti kimi müəyyən edərək, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələri, o cümlədən senzuranı aradan qaldırmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən mükəmməl qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, mətbuatın kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsinə şərait yaratmışdır. Azərbaycan milli jurnalistikası həmin dövrdən başlayaraq, yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Hazırda Azərbaycanda 200-dən artıq qəzet, 100-ə yaxın jurnal, 50-dən çox televiziya və radio kanalı, onlarla mətbuat yayımı şirkəti və jurnalist təşkilatı fəaliyyət göstərir. İnternetin sürətli inkişafı çoxsaylı informasiya resurslarının yaranmasına səbəb olmuş, ölkə əhalisi arasında internet yayımı 75 faizə çatmış, sosial şəbəkə istifadəçilərinin sayı 2 milyona yaxınlaşmışdır. 2008-ci ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na uyğun olaraq milli mətbuatın müstəqilliyinin dəstəklənməsi, redaksiyalara yardım mexanizminin təkmilləşdirilməsi, müasir texnologiyaların tətbiqi, cəmiyyət və mətbuat arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, sosial təminatının yaxşılaşdırılması və əməyinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər davam etdirilir.

Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycan Respublikası regionun siyasi, iqtisadi və humanitar mərkəzi statusunu qazanaraq beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuşdur. Mövcud inkişaf dinamikası Azərbaycanın milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir. Qlobal informasiya məkanının gündən-günə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial olmalı, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirərək Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutmalıdırlar. Mətbuatımız ölkəmizdə müasir cəmiyyət quruculuğu, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsi, siyasi mədəniyyətin inkişaf etdirilməsi, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması və təbliğində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir.

Azərbaycan milli mətbuatının ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı yerini, vətəndaş cəmiyyətinin inkişafı, milli mənəvi dəyərlərin təbliği, gənc nəslin vətənpərvərlik tərbiyəsi sahəsindəki rolunu nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan milli mətbuatının 140 illik yubileyi Azərbaycan Respublikasında geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın ki:

2.1. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın bölgələrində yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

2.2. Jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 iyun 2015-ci il.

*15 İyun - Milli Qurtuluş Günüdür*

# “Müstəqil dövlətin güclü ordusu olmalıdır”

## Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanın ordu quruculuğunda əsaslı dönüş yarandı



***Ordu sözünü dilə gətirəndə, ilk növbədə nəzərimizdə dövlətin müstəqilliyinin və suverenliyinin etibarlı dayağı canlanır. Buna görə də öz xalqının azadlığını düşünən hər kəs doğma ordusunun hərbi qüdrətindən qürur duymalıdır. Ümummilli liderimiz Heydər Əliyev daim qeyd edirdi ki, "Müstəqil dövlətçiliyin əsas dayaqlarından biri güclü ordunun mövcudluğudur. Hər bir müstəqil dövlətin güclü ordusu olmalıdır". Ümumiyyətlə, bütün dünya dövlətlərinin təcrübəsində ordu quruculuğu çətin və mürəkkəb proses kimi iz qoyur. Əsasən də müstəqil olmayan, uzun müddət imperiyaların əsarətində yaşayan bir xalqın öz ordusunu yaratması mürəkkəbliyi ilə seçilir. Uzun illər çarizmin, sonrakı 70 ildə isə sovetlərin tabeliyində olan Azərbaycan ötən əsrin sonlarında müstəqilliyə qovuşanda məhz bu çətinliklərlə üzləşməli oldu.***

Ölkəmiz XX əsrin 90-cı illərində tarixi müstəqilliyini bərpa edəndə, çox mürəkkəb, çətin tarixi şəraitlə üzləşdi. Suverenliyimizə qəsd edən xarici qüvvələr tərəfindən güclü dəstək alan Ermənistan öz ərazilərini genişləndirmək məqsədilə sərhəd bölgələrimizə basqın etdi. Təsəvvür edin, yenicə müstəqillik qazanan və iqtisadi təməlini yaratmağa macal tapmayan gənc dövlətimiz üçün müharibə nə demək idi. Bir tərəfdən siyasi hakimiyyətin naşı adamların əlinə keçməsi, digər tərəfdən isə xalqımızın hərbi ənənələrini yadırğaması nəticəsində Azərbaycan müharibə aparmağa qadir deyildi. Gəlin, bu yerdə bir məsələni qeyd edək ki, ölkəmiz yalnız bir respublikanın deyil, ona havadarlıq edənlərin basqısı ilə üzləşmişdi. Nəticədə 20 faiz torpaqlarımız Ermənistan tərəfindən işğal edildi. Hələ bundan əlavə müstəqil dövlətçiliyimizin varlığı da təhlükəyə məruz qaldı. Məhz belə bir çətin şəraitdə Azərbaycan xalqı doğru seçim edərək müdrik siyasətçiyə - ümummilli lider Heydər Əliyevə üz tutdu.

Bu yaxınlarda "Buta" sarayında Respublika Günü ilə bağlı keçirilən dövlət mərasimində çıxış edən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qeyd etdiyi kimi, müstəqil dövlətçiliyimizin formalaşması faktiki olaraq 1993-cü ildən, ulu öndərimizin siyasi hakimiyyətə qayıdışı ilə başlanıb. Həqiqətən də, həmin dövr müstəqilliyimizin taleyində əsaslı dönüşün başlanğıcı oldu. Azərbaycan Silahlı Qüvvələri məhz müdrik dövlət xadimi olan Heydər Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində vahid komandanlıqdan idarə edilən güclü hərbi strukrura çevrildi.

"Zəngin hərbi tarixə malik olan Azərbaycan xalqı öz Silahlı Qüvvələrinin əzm və qüdrətinə arxalanaraq çətin və ağır dövlət quruculuğu yollarında daha inamla addımlayacaq və yeni zəfərlər qazanacaq", - deyən ulu öndər ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasında, sərhədlərimizin toxunulmazlığında və Azərbaycanın beynəlxalq aləmdə nüfuz sahibinə çevrilməsində güclü ordunun önəmini daim qeyd edirdi.

Müdrik siyasətçinin sözlərindən də hiss edildiyi kimi, tarixən xalqımız hərbi ənənələrə malik olub, dünya hərb elminə dəyərli töhfələr vermiş layiqli sərkərdələrimizlə tanınmışıq. Məsələn, çarizm ordusunda Əlağa Şıxlinski, Səməd bəy Mehmandarov, Cəmşid Naxçıvanski kimi məşhur hərb xadimlərimiz, həmçinin Böyük Vətən müharibəsində düşmənə öz məharətli taktikası ilə qan udduran görkəmli tank qoşunları komandanı general-mayor Həzi Aslanov kimi sərkərdələrimiz olub və xalqımız hər zaman onlarla fəxr edib, öyünüb. Amma böyük imperiyanın müstəmləkəçilik siyasətinin ideoloqları zaman-zaman xalqımızı məqsədli şəkildə hərbi ənənələrdən uzaqlaşmağa sövq ediblər. Nəhayət, XX əsrin Azərbaycan xalqına bəxş etdiyi Heydər Əliyev kimi tarixi siyasətçi postsovet məkanında belə hərbi ənənələrimizin bərpa edilməsinə səy göstərdi və böyük qətiyyəti hesabına buna nail oldu. 1970-ci illərin əvvəlində Bakıda indiki C.Naxçıvanski adına Hərbi Liseyin yaradılması məhz ümummilli liderin Azərbaycanın gələcəyinə hesablanmış tarixi xidmətlərindən biri idi. Budur, müasir ordumuzun generallarının, döyüş yolu keçmiş təcrübəli zabitlərinin böyük əksəriyyəti həmin məktəbin yetirmələridir. Mən həmişə hərbi təhsil ocağının ildönümü ilə bağlı bir dövlət tədbirini nostalji duyğularla xatırlayıram. Həmin mərasimdə çıxış edən ulu öndərimiz salonda əyləşən yüksək rütbəli zabitlərə həsədlə baxıb köks ötürmüşdü və demişdi: "Bu gün fəxr etməyə haqqım çatır ki, Azərbaycan üçün belə bir məktəb yaratmışam və onun yetirmələrini görəndə hədsiz qürur duyuram". Mən deyərdim ki, bu ibtidai hərbi məktəbin yaradılması ilə xalqımızın unudulmaqda olan hərbi ənənələri bərpa edildi, Azərbaycan gəncliyində hərbə maraq yarandı və yüzlərlə azərbaycanlı yeniyetmə hərbçi peşələrinə yiyələndi. Bununla yanaşı, ümummilli lider Sovet rəhbərliyindəki şəxsi münasibətləri hesabına onlarla azərbaycanlı zabitin yüksək hərbi akademiyalara qəbul edilməsinə nail olmuşdu. Məhz həmin zabitlər müstəqillik dönəmində Vətənə qayıdaraq doğma ordumuzun qısa vaxtda formalaşmasına öz töhfələrini verdilər.

Azərbaycanın müstəqilliyinin qorunub möhkəmlənməsində əvəzedilməz rolu olan müdrik rəhbər 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra Silahlı Qüvvələrimizin çox qısa zamanda formalaşması üçün mühüm islahatlara başladı. O, daim tövsiyə edirdi ki, hər bir xalqın müstəqilliyinin qorunmasında və dünya birliyində layiqli yer tutmasında yüksək döyüş qabiliyyətinə və güclü nizam-intizama malik olan ordusunun mövcudluğu mühüm əhəmiyyət kəsb edir. Bu sıradan dahi dövlət xadiminin rəhbərliyi ilə hərbi təhsil, beynəlxalq hərbi əməkdaşlıq və hərbi səhiyyənin, ordunun maddi-texniki təminatının gücləndirilməsi istiqamətində həyata keçirilən mühüm islahatlar doğma ordumuzun regionda güc sahibinə və müstəqilliyimizin etibarlı təminatçısına çevrilməsinə səbəb oldu.

Azərbaycan vətəndaşları fəxr edirlər ki, müasir dövrdə ümummilli liderin ordu quruculuğu strategiyası onun siyasi kursunun layiqli yetirməsi olan Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Böyük öndərin ideyalarına sadiq olan dövlətimizin rəhbərliyi Azərbaycanda qüdrətli ordunun yaradılmasını əsas prioriteti elan edib və bu istiqamətdə uğurlu siyasət yürüdür. Bu məqsədyönlü siyasətin nəticəsi olaraq Silahlı Qüvvələrimiz dünyanın qabaqcıl orduları sırasında özünə yer tutub.

Bu gün Müdafiə Nazirliyinin rəhbərliyi də ulu öndərin irsini yaşadaraq Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin artırılması üçün əlindən gələni əsirgəmir. Son vaxtlar orduda şəxsi heyətin döyüş ruhunun artırılması, sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində geniş tədbirlər həyata keçirilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi hissə və birləşmələrin şəxsi heyətinə daim tövsiyə edir ki, ümummilli liderimiz Heydər Əliyevin ideyalarına sədaqətli olmaq, onun Vətənə həsr olunan ömür yolundan və tarixi fəaliyyətindən nümunə götürmək hərbi qulluqçuların əsas vəzifələrindən biridir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Ön xətdən reportaj*

# Düşmən dəqiq atəş zərbələri ilə susdurulur

***Gün-günortanı çoxdan keçib. Günəş tələsmədən qüruba tərəf enir. Mayor Eldəniz İsmayılovla gün batmamış, qaranlıq düşməmiş ön xəttə - səngərlərə tələsirik. Torpaq yollarla hey irəli gedirik. Hələ səngərlərə xeyli var.***

- Şəxsi heyətimiz mövqelərində daim ayıq-sayıqdır, - deyə mayor yolboyu söhbət edir. - Gün ərzində düşmənin yerləşdiyi əraziyə ciddi nəzarət edirik. İşğalçılar atəşkəs rejimini pozan kimi dəqiq cavab atəş zərbələri ilə susdurulur.

Nəhayət, ön xətdə torpaqlarımızın keşiyində dayanan zabit və əsgərlərin yanına çatırıq. Dərin, səliqəli səngərlə irəliləyirik. Kiçik



lövhələrdə yazılmış "Səngər sənin alınmaz qalandır", "Şəhid qanı yerdə qalmaz", "Sən Vətənin keşiyindəsən" və başqa şüarlar diqqətimi cəlb edir. Bu şüarlar əsgərlərin ayıq-sayıqlığını, vətənpərvərliyini daha da artırır, onları xidmətə ruhlandırır.

Üz-gözündən igidlik və rəşadət yağan döyüşçülərlə görüşürük. Hər kəs öz mövqeyində ayıq-sayıq dayanıb. Ərazidə daim intensiv müşahidə aparılır. Düşmənin bütün hərəkətləri nəzarətdədir.

Leytenant Pərviz İmanovla görüşüb söhbət edəndə öyrəndim ki, zabit Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib. Söhbətindən hiss edirəm ki, Pərviz yurda, el-obaya ürəkdən bağlıdır. Ordumuzun sıralarında xidmətə ötən ilin noyabrından başlayıb. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kurs keçib, hərbi bilikləri dərindən öyrənib, vacib döyüş vərdişlərinə yiyələnib. Xidmətə başladığı gündən isə taqım komandiri kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlir.

- Vətən torpaqlarının keşiyində dayanmaqdan qürur duyuram, - deyir leytenant. - Gecə-gündüz yurdumuzu erməni işğalçılarından qoruyuruq. Vətənpərvərlik hissləri yüksək olan əsgərlər mövqelərində ayıq-sayıq dayanır, düşmən postlarını gözdən qoymurlar. Şəxsi heyətin döyüş hazırlığı yüksəkdir, onlar istənilən an düşməni məhv etməyə qadirdirlər. Bir neçə gün əvvəl erməni işğalçıları atəşkəs rejimini pozmağa cəhd göstərdilər. Amma dəqiq atəş zərbələri ilə düşməni susdurduq.

Budur, leytenant Pərviz İmanov mövqelərimizdə dayanan əsgərləri təlimatlandırır, onlara dəyərli məsləhət və tövsiyələr verir.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**



## Azərbaycandakı xarici ölkələrin hərbi attaşeləri Naxçıvana səfər ediblər

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xarici dövlətlərin ölkəmizdə akkreditə olunan hərbi attaşeləri Naxçıvan şəhərinə səfər ediblər.***

On iki dövləti təmsil edən hərbi attaşelər burada Heydər Əliyev adına Hərbi Liseydə və hərbi hissədə olublar. Qonaqlar hərbi qulluqçuların döyüş hazırlığından, onlar üçün yaradılmış tədris, xidmət və məişət şəraitinin səviyyəsindən məmnun qalıblar.

Ziyarət proqramına uyğun olaraq hərbi attaşelər və onların ailə üzvləri Naxçıvan şəhərinin mərkəzində ucaldılmış Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərin muzeyini ziyarət ediblər.

Sonra qonaqlar Naxçıvan Biznes Mərkəzini, "Əshabi-Kəhf" ziyarətgahını, Möminə Xatun türbəsini, Naxçıvan qalasını, duz mağarasını, Nuh Peyğəmbərin məzarını ziyarət ediblər.

Hərbi attaşelər səfərin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə və Əlahiddə Ümumqoşun Ordusunun Komandanlığına minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Döyüş hazırlığı*

# Tankçıların hünər yeri döyüş meydanıdır



***Hər bir ordunun güclü olduğunu onun əsgərlərinin hazırlığı ilə müəyyən etmək mümkündür. İstər cəbhə bölgəsi olsun, istərsə də ehtiyat hissələr, fərq etməz. Əsas odur ki, ən kiçik bölmədən tutmuş birlik və birləşmələrin əsgərlərində yüksək intizam, döyüş ruhu olsun.***

Bu yaxınlarda cəbhə bölgəsində olarkən tankçıların xidməti ilə yaxından tanış oldum. Mayor Vasif Səfərov tankçıların son təlimlərindən ətraflı bəhs etdi. Zabitin sözlərinə görə, tankçılar təlim mərkəzində müntəzəm döyüş atışları keçiblər. Onlar burada həm zirehli texnikaları müxtəlif maneələrdən keçirməklə, həm də gedə-gedə nişan almaqla hədəfi məhv etməyi öyrəniblər.

Tankçılarımızın döyüşə hazırlanmasında, söz yox ki, yüksək bilik və bacarıqlara malik komandirlərin əməyi az rol oynamır. Bir vaxtlar bu sahəni mükəmməl bilən döyüşçülər barmaqla sayılırdısa, hazırda ordumuzda peşəkar tankçıların sayı yüzlərlədir. Bu isə onu göstərir ki, istənilən an Ali Baş Komandan cənab İlham Əliyev erməni işğalı altında olan torpaqlarımızı azad etmək üçün döyüş əmri verərsə, digər qoşun növləri kimi, tankçılar da qısa zamanda uğurlu hərbi əməliyyatları həyata keçirəcəklər.

Söz yox ki, hər bir qələbənin kökündə şəxsi heyətin ruh yüksəkliyi və təminatı dayanır. Hər yan yaşıllıqlarla əhatə olunmuş hərbi hissənin geniş həyətinə daxil olarkən təmizlik, səliqə-sahman döyüşən bölmənin üz göstəricisi idi. Qısa zamanda yaradılan abadlıq bir daha onu göstərir ki, onlar istənilən tapşırığın öhdəsindən bacarıqla gəlirlər.

Çox keçmədi kapitan Teymur Mustafayevlə yenicə təlimdən qayıtmış baş leytenant Emil Quliyevin tabeliyində olan tankçıların yanına yollandıq. Zabit tankçıları düzüb onlara lazımi tapşırıqlarını verirdi. Döyüş-atışlı təlimlərdə yüksək göstəricilər əldə etmələrinə baxmayaraq, onlar bununla arxayınlaşmır, daim təcrübələrini artırır, peşə vərdişlərini təkmilləşdirirlər. Budur, tank komandiri gizir Məqsəd Hüseynovla görüşüb onun hərbi xidmətdəki fəaliyyətini dinləyirəm.

- Ağstafa rayonundanam, - deyir cəsur tankçı. - Dörd ildən artıqdır ki, tank komandiri vəzifəsində xidmət edirəm. Bu müddət ərzində dəfələrlə Silahlı Qüvvələrin genişmiqyaslı təlimlərinə öz tankımla və heyətimlə cəlb olunmuşam. Hər dəfə yüksək döyüş vərdişləri nümayiş etdirdiyimə görə komandanlıq tərəfindən mükafata layiq görülmüşəm. Heyətim bu dəfə də təlimdə döyüş-atışları yüksək göstəricilərlə başa vurdu. Bu isə gerçəkdən bizi sevindirir.



Heyət üzvü tuşlayıcı Səddam Rəhimli bir ildən artıqdır ki, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi ordu sıralarındadır. Onda tankçı olmaq arzusu əsgərlik dövründə baş qaldırıb. Əslən Bərdə rayonundan olan əsgər xidmətindən razıdır.

Mexanik-sürücü əsgər Pərviz Nağıyev də söhbətimizə qoşulur. Deyir ki, istənilən uğuru qazanmaq üçün heyət üzvlərinin hamısı hərbi bilikləri mənimsəməli və bacarıqlarını tətbiq etməlidir. Əgər onlardan biri zəif olarsa, o heyət heç zaman uğurlu nəticəni qazana bilməz. Ona görə də hamı daim öyrənməli və bacarıqlarını artırmalıdır.



Əsgər P.Nağıyevin dediklərini baş leytenant E.Quliyev də təsdiq etdi. Bildirdi ki, hər bir heyət üzvünün üzərinə böyük məsuliyyət düşür. Ona görə də bir tankın təlimdə və ya döyüşdə qazandığı nailiyyət heyətin uğuru kimi dəyərləndirilir.

Bir daha tankçılarımızın nəyə qadir olduqlarını öyrəndik və onların hərbi xidmətlərindən məmnun qaldıqlarını gördük. Bu cür hazırlıq isə göstərir ki, istənilən an tankçılarımız düşmən üzərində qələbəni təmin edə bilərlər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Qələbəyə inam



***Cəbhə bölgəsində yerləşən hərbi hissəyə çatmaq üçün üzü dağlara tərəf gedirik. Yüksəkliyə doğru qalxdıqca hava yavaş-yavaş soyuyur. Günəşin al şəfəqləri bizi bayaqkı kimi yandırmır. Həvəslə, yüksək ovqatla Azərbaycan əsgərinin görüşünə gedirik. Torpaqlarımızı erməni işğalçılarından qoruyan zabit və əsgərlərimiz isə zirvələrdə məskən salıblar. Təbiidir ki, Azərbaycan əsgərinin yeri yalnız yüksəkliklərdir. Qartal kimi zirvələrdə olmaq ona yaraşır.***

Hələ də zirvəsindən qarı əskik olmayan dağların ətəyindən keçib hərbi hissənin yerləşdiyi geniş sahəyə çatırıq. Nəzarət-buraxılış məntəqəsində çox ləngimədən əraziyə daxil oluruq. Zabitlər və əsgərlər qarşımızdan keçib təlim meydanına tələsirlər. Hərbi hissədə ilk həmsöhbətim polkovnik-leytenant Elzamin Behbudov oldu. Xidmət yolu kifayət qədər zəngin olan bu zabit şəxsi heyətin üzərinə düşən vəzifələrdən söz açdı. Bildirdi ki, bu gün ən başlıca və mühüm vəzifəmiz torpaqlarımızı erməni işğalçılarından azad etmək, yurdumuzun keşiyində ayıq-sayıq dayanmaqdır. Bu müqəddəs və şərəfli vəzifələri yerinə yetirmək üçün xidmətimizə məsuliyyətlə yanaşırıq.

Mayor Elxan Cavadov da xeyli müddətdir ki, cəbhə bölgəsində yerləşən bu hərbi hissədə xidmət edir. Hərbi sahədə kifayət qədər təcrübəsi olan bu zabitlə birlikdə yaxınlıqda təlim keçən şəxsi heyətin yanına yollandıq. O, yolboyu əsgərlərin mənəvi-psixoloji hazırlığının yüksək olmasından ürəkdolusu danışdı. Əminlik hissi ilə vurğuladı ki, hərbi hissənin zabit və əsgərləri torpaqlarımızı düşməndən azad etmək üçün hünər və qəhrəmanlıq göstərməyə qadirdirlər.

Təlim keçən əsgərlər komandirin nəzarəti altında avtomat silahının natamam sökülüb-yığılmasını, həmçinin hədəflərə atəş açmağı öyrənirlər.

- Əsgərlərimiz döyüşlərdə uğur qazanmaq üçün təlimlərdə fəal iştirak edirlər, - deyə baş leytenant Səid Abbasov bizimlə söhbətə cığır açdı. - Məşğələlərin səmərəli keçməsi üçün bütün imkan və vasitələrdən bacarıqla istifadə edirik. İstifadəmizdə isə xeyli tədris vasitələri, hərbi ədəbiyyat və şərait var. Xidməti vəzifələrimizə məsuliyyətlə yanaşdığımızdan həmişə qarşıya qoyulan tapşırıqları peşəkarlıqla yerinə yetiririk. Əsgərlərimizin döyüş hazırlığı gündən-günə artır. Təlimlər zamanı şəxsi heyət hədəfləri dəqiq vurur.



Baş leytenant Səid Abbasov xidməti vəzifələrini bacarıqla yerinə yetirən şəxsi heyətdən söz açdı. Bildirdi ki, əsgərlərdən Fərid Əliyev, Vəzirxan İmamzadə, Elgün Güləmmədov, Əli Hüseynov, Babək Nəbiyev, Asim Cəbrayılov və başqaları üzərlərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlirlər.

Döyüşün sirlərinə yiyələnən əsgərlərin məşğələsi davam edir. Zirvələri fəth etməyə alışan Azərbaycan əsgəri daim döyüş hazırlığını artırır. Onların addım səsləri qarlı dağlarda əks-səda verir...

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## MDB Müdafiə Nazirləri Şurasının iclası keçirilib

İyunun 3-də Qırğızıstan Respublikasının Çolpon-Ata şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının növbəti iclası keçirilib.

İclasda iştirak edən Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov quruma üzv olan ölkələrin Müdafiə nazirləri ilə MDB çərçivəsində hərbi əməkdaşlıq məsələlərinin müxtəlif aspektlərini müzakirə edib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***5 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 72 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərindən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çaylı, Çiləbürt, Göyarx, Ağdam rayonunun Şuraabad, Şıxlar, Yusifcanlı, Cəvahirli, Sarıcalı, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 5-də Ağdam rayonunun Qaradağlı kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Piter Svedberq, təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik səhra köməkçiləri Jiri Aberle və Yevgeni Şarov keçiriblər.

* * *

İyunun 5-də Ağdam rayonunun Qaradağlı kəndi yaxınlığındakı qoşunların təmas xəttində keçirilən monitorinq zamanı Azərbaycan tərəfinin ATƏT müşahidəçilərini guya ön xəttə çıxarmaması barədə Ermənistanın elektron kütləvi informasiya vasitələrinin yaydığı məlumat tam yalandır və dezinformasiya xarakteri daşıyır.

Keçirilən monitorinqdə iştirak edən təcrübəli müşahidəçilərin uzun illərdir bu fəaliyyətlə məşğul olmaları, bölgənin relyefini yaxından tanımalarını nəzərə alaraq onların əvvəlcədən planlaşdırılaraq təyin edilən koordinatlara deyil, başqa nöqtəyə çıxarılması qeyri-mümkündür. Erməni tərəfi bu cür yalan məlumatlar yaymaqla hər bir vasitə ilə növbəti dəfə beynəlxalq qurumu öz təxribatlarına cəlb etməyə cəhd göstərir, beynəlxalq missiyanı həyata keçirən ATƏT müşahidəçilərinin fəaliyyətinə kölgə salmaq və onların adlarının erməni tərəfinin çirkin əməllərində istifadə edilməsi məqsədini daşıyır.

Müdafiə Nazirliyi bildirir ki, iyunun 5-də qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb və onu həyata keçirən müşahidəçilər (Xristo Xristov və Piter Svedberq) missiyalarının yerinə yetirilməsi üçün yaradılan şəraitə görə Azərbaycan tərəfinə minnətdarlıq ediblər.

Qeyd edək ki, məhz erməni tərəfi cari ilin yanvar ayının 14-də və 29-da qoşunların təmas xəttində monitorinqlərin plana uyğun olaraq keçirilməsinə mane olub.

*Tibb xidməti*

# “Vətənə sağlam gənclik, sağlam əsgər gərəkdir”



Tarix boyu bədxah qonşularımızın gözü əzəli Azərbaycan torpaqlarında olub. Lakin xalqımız düşmən qarşısında daim öz iradəsini göstərib. Müharibə varsa, düşmən varsa, şəhid də var, yaralı da. Şəhidlik ən mötəbər zirvədi. Lakin Vətən üçün ölmək yox, öldürmək gərəkdir. Yaralı döyüşçülərin müalicə və müayinəsi üçün orduda tibb sahəsinə böyük diqqət yetirilir. "N" hərbi hissəsində ezamiyyətdə olarkən Vətən müdafiəçilərinin sağlamlığının keşiyində duran tibb işçiləri ilə də görüşdüm. Həkimlər həyatlarını Azərbaycan əsgərinin sağlamlığına həsr etmiş təcrübəli tibb işçiləridir. Onlar hərtərəfli biliyə və savada sahibdirlər. Buradakı həkimlərin yalnız bir məqsədi var: Vətənin əmanətini qorumaq üçün əllərindən gələni etmək...

Hərbi hissənin tibb məntəqəsindəyik. Bizi ilk qarşılayan tibb xidməti kapitanı Oktay Kamalovla hal-əhval tutur, söhbətləşirik. Sonra səmimi söhbətə ən müasir standartlara cavab verən tibb məntəqəsini gəzərək davam edirik. Hər otağa daxil olduqca kapitan məlumat verir, tibbi avadanlıqlarla bizi tanış edir.

Söhbətimiz zamanı həkim özü haqqında da geniş məlumat verdi. O, Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edib, 4 dəfə yaralanıb. Müharibədən qayıtdıqdan sonra Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə qəbul olub. 2002-ci ildə universiteti bitirdikdən sonra həyatını yenidən ordu ilə bağlayıb. Bu dəfə hərbi həkim olaraq Naxçıvan Muxtar Respublikasında Vətən müdafiəçilərinin sağlamlığının keşiyində dayanıb. Bu peşəni seçməkdən heç də peşman deyil.

- Hazırkı mərhələdə xidmətimiz çox yaxşıdır. Ordu quruculuğunun bu və ya digər istiqamətlərdə inkişafını təkmilləşdirmək məqsədilə dövlətimizin rəhbərliyi, şəxsən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən məqsədyönlü siyasət həyata keçirilir. Əlbəttə, dövlətimizin düşünülmüş ordu quruculuğu siyasəti artıq öz bəhrəsini verib. Yəni, bu gün dünyanın tanınmış hərbi ekspertləri də birmənalı şəkildə qeyd edirlər ki, Azərbaycan Ordusu qısa zaman ərzində mükəmməl uğurlara imza ataraq regionun qüdrətli ordusuna çevrilib, - deyə tibb xidməti kapitanı söhbətini bitirir.

Növbəti həmsöhbətim isə tibb məntəqə rəisinin vəzifələrini icra edən baş leytenant Cavidan Əliyevdir. O, 2010-cu ildə Gülhanə Hərbi Tibb Akademiyasını bitirib.

"Hərbi həkim olmaq həm də döyüşçü olmaq deməkdir. Əgər forma geyinmişiksə, əlimiz silah tutursa, Vətənin müdafiəsinə qalxmağa hazır olmalıyıq. Həm həkim, həm də hərbçi olmaq ikiqat məsuliyyətdir. Əsgərlərimizə sağlamlıq bəxş edən bu əllər düşməni də məhv etməyə hazırdır", - deyir həkim.

Maraqlı gələn bir məsələ isə buradakı iş fəaliyyəti və müayinə prosesləridir. Həkim bu barədə də geniş məlumat verir:

- Hər hansı şikayəti olan hərbi qulluqçu tibb məntəqəsinin həkimlərinə müraciət edir. Onlar ilkin müayinə edildikdən sonra müalicəyə qəbul olunur. Mən və digər həkimlər aiddiyyəti üzrə xəstəni müayinə edirik. Müalicəsi burda mümkün olanları sağaldıb, xidmət yerlərinə göndəririk. Zərurət yaranarsa, xəstələri ixtisaslı müayinə və müalicə olunmaq üçün hospitala təxliyyə edirik. Mövsümlə əlaqədar infeksion xəstəliklərin qarşısını almaq üçün hərbi hissədə şəxsi heyətə peyvəndlər vurulur və digər profilaktik tədbirlər aparırlar.

Stomatoloji kabinetdə rastlaşdığım, ilk baxışdan səmimiliyi və mehribanlığı ilə seçilən diş həkimi Mirmahmud Arzumanlı iş başında idi. Əsgər Ruslan Bayramovun dişlərini müayinə edirdi. Azərbaycan Dövlət Tibb Universitetini bitirən gənc zabit ehtiyat zabit hazırlığı kursunu bitirərək ordu sıralarına qoşulub.



Stomatoloji kabinetin ən müasir avadanlıqlarla təmin olunduğunu bildirən zabit dedi ki, müalicə və müayinə üçün heç bir problemimiz yoxdur.

Doğmalarından uzaqda xidmət etmək çətin deyilmi, sualına gənc və qayğıkeş zabit müəllifi olduğu bir şeirlə cavab verir.

*Can deyirəm canım sənsən,*
*Damarımda qanım sənsən,*
*Ruhun ilə yaşayıram,*
*Qurban olsun sənə bu can,*
*Doğma Vətən, Azərbaycan!*

*Kaş uğrunda şəhid olam,*
*Torpağına basdırılam,*
*Əl aç al məni qoynuna,*
*Yetər, məni övladın san,*
*Doğma Vətən, Azərbaycan!*

Şair təbiətli diş həkimi ilə sağollaşıb müayinə otağına keçərkən tibb bacısı Günəş Ağayeva ilə rastlaşırıq. Kapitan Oktay Kamalov onu göstərərək bildirdi ki, 8 ildir tibb bacısı işləyir. Əvvəllər rayonun mərkəzi xəstəxanasında çalışırdı. Son bir ildir ki, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq bizimlə birgə əsgərlərin sağlamlığı keşiyində durur. Hər bir əsgərlə öz övladı kimi davranır, qayğısına qalır.

Tibb məntəqəsində həkimlər, xəstələr ilə görüşdükdən sonra xoş əhval-ruhiyyə ilə geri qayıdırdım ki, dəhlizin görməli guşəsində ümummilli lider Heydər Əliyevin müdrik kəlamına rast gəlirəm. "Vətənə sağlam gənclik, sağlam əsgər gərəkdir".

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**



*Publisistik düşüncələr*

# “Səndən ötrü can verməyə cümlə hazırız”...

***Bir misrası yaşam fəlsəfəmiz olan himnimiz bütövlükdə varlığımızın tərcümanıdı: "Səndən ötrü can verməyə cümlə hazırız"...***

Türk şairi Arif Nihat Asyanın bir şeirini xatırlayıram: "Bu Vatan kimin?". Şeirin hər misrası oxuyanın (dinləyənin) düşüncələrinə sınaq kimi səslənir. Vətəni sərhədlərlə əhatələnmiş torpaq sahəsi bilənlər nəfəsini içinə çəkir - dinə bilmir. Dinib nə desin? Vətəni ata yurdu bilənlər, ana laylası bilənlər, dədə öyüdü bilənlər, tarixi dünənin (ruhların) əmanəti bilənlər, tarixin sabahlarının gözləməsi bilənlər, ... deyir ki, Vətən Vətəni ana təyini ilə qoşa səsləndirənlərindi, Vətəni Vətən kimi sevənlərindi, gündüzlərinin qürurunda, gecələrinin yuxusunda əzizləyənlərindi, məqamında onun varlığı, yaşamı üçün can əsirgəməyənlərindi. Azərbaycanın Milli Qəhrəmanları Yusif Mirzəyev, Koroğlu Rəhimov, Vəzir Orucov, Albert Aqaronov, İsgəndər Aznaurov, Mübariz İbrahimov... kimi "Vətən mənə nə verdi?" demədən yaşadı, "Mən Vətənə nə verdim, nə verməliyəm?" düşüncəsiylə yaşadı. Ömür verdilər Vətənə. Onlar hər birinin yaşadığı illər yaşayanlar üçün Vətənin zəmanəti ilə ömür düsturudu...

Torpağı Vətən mərtəbəsində sevənlər yaxşı bilir ki, "məndən, səndən ötən zərbə Vətənə dəyir" (Nazim Hikmət). Məndən, səndən ötən zərbə Xocalıya dəydi, Laçına dəydi, Şuşaya, Ağdama, Füzuliyə, Qubadlıya, Cəbrayıla, Zəngilana... dəydi.

Bu yaxınlarda eşitdiyim bir hadisəni xatırlayıram.

Yaşı 80-ni aşan Səməd kişi ağır xəstələnmişdi. Son 23 ilin sıxıntıları kişinin qəddini əymişdi. 23 ilidi Kəlbəcərsizdi. Havasını udduğu, suyunu içdiyi, Vətən kimi ilkin olaraq tanıdığı və təəssübünü çəkdiyi el-obasından uzaq düşməsi kişini bu illərdə şam kimi əridirmiş. Kimsəyə hiss etdirmədən bu ağrılarla yaşayırmış. "Özümün çəkdiklərim özümə bəsdi. Oğul-uşağı üzməyimdən nə fayda. Onları üzməklə Kəlbəcərimiz qayıdacaqmı?" - düşünürdü. Gündüzlər xəyallarında, gecələr yuxularında da Kəlbəcər. Əli çatmasa da, ünü yetməsə də xəyallarından üzülmürdü Kəlbəcər. "Nə vaxtsa qayıdacağıq. Ömür vəfa qılsa, mən də görəcəm Kəlbəcərimizi...".

Daha dava-dərman ağrılarını azalda bilmirdi. Oğulları nə qədər canfəşanlıq eləsələr də həkimlər bir çarə edə bilmirdi. Ciyərparalarının çəkdiyi mənəvi sarsıntıları duyan, bunu da özünə bir ayrı dərd eləyən Səməd kişi bir gün dili tutar-tutmaz oğullarına deyir:

- Mənə bircə içim Kəlbəcər suyu verin, anadangəlmə olum...

Yaşlılar, ahıllar da bu amalla yaşayır, cavanlar, yeniyetmələr də.

Yazıçılar Birliyinin "Natəvan" klubunda cavan şairlərlə söhbətləşirdik. Həsrət "Vətən çiçəkləri". Yaxşı şeir idi. Həsrət Laçını görməyib. "Görmədiyim, dərmədiyim çiçəkləri ğörmək üçün, dərmək üçün yaşayıram!...". Vətən budur! Üzünü görmədən də özünün pərvanəsi olursan. 20 yaşlı Həsrətin 23 yaşlı həsrəti o çiçəklərin ləçəklərinə toxununacan ovunmayacaq, şübhəsiz. Bu və ya digər səbəbdən Vətəndən uzaq düşənlərin gecəsiylə gündüzü qarışıq düşür, çalpaşıq gümanları düşüncələrində çözüldükcə çözülür...

Mehdi Hüseynzadə düşür yadıma, Mixaylo. Uzaq Adriatik sahillərində od-alovun içində də yadından çıxmırdı Azərbaycan - Vətən:

*Kaş ki bir sarı yarpaq olaydım,*
*Sabahın yelləri alaydı məni.*
*Aşaraq o qarlı uca dağları,*
*Vətən torpağına salaydı məni...*

Bu düşüncələrlə vuruşan, Azərbaycan adına vuruşan, azərbaycanlı oğulların cəsarətinin, qəhrəmanlığının təsdiqinin daşıyıcısı kimi vuruşan Mehdi Hüseynzadənin Vətən sevgisi 70 ildi təkcə bizim deyil, uzaq Adriatik sahillərinin də qürurunun sönməz işığıdı...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "The Busines Year" jurnalına müsahibəsində bir həqiqəti dünya ictimaiyyətinə də, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına ikili münasibəti olan dövlətlərə də qətiyyətlə bildirib: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü çərçivəsində həlli ... diqqət mərkəzində olacaqdır". Dövlət başçısının dediyi bu tezis hər birimizin - hərbi qulluqçuların da, mülki əhalinin də istəyini ifadə edir. Torpaqlarımızın işğaldan azad edilməsini özünün başlıca vəzifəsi bilən, bu amalla xidmət edən hər bir Azərbaycan əsgəri cəmiyyətin ümid, inam ünvanıdı. Silahlı Qüvvələrimizdə aparılan islahatlar nəticəsində istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının səviyyəsi ilə ordumuz Cənubi Qafqazın ən güclü ordusudur. Bunu düşmən də görür, hiss eləyir. Etiraf etməsə də, ordumuzun qüdrətindən çəkinir. Son vaxtlar həyata keçirilən təlimlər təsdiqlədi ki, bu ordu torpaqlarını işğaldan azad etməyə qadirdir.

Azərbaycan əsgəri Ali Baş Komandanın, Müdafiə nazirinin tövsiyələrini vaxtaşırı bilavasitə səngərlərdə alır. Bu, hərbi qulluqçuların qələbə əzmini, iradəsini, Vətən sevgisini bir boy da dikəldir...

Azərbaycan Prezidentinin "The Busines Year" jurnalına müsahibəsində dediyi "...Azərbaycan regionun aparıcı ölkəsi olmaqla yanaşı, dünyada mövqeyi nəzərə alınan güc amilinə çevrilir, qlobal məsələlərin həllinə cəlb olunur" fikir düşmənə açıq mesajdır: belə bir dövlətin torpaqlarını işğal altında saxlamaq mümkün olmayacaq! "Səndən ötrü can verməyə cümlə hazırız" deyənlər gözlənilən o günün təşnəsidi. Bir əmr və işğaldan qurtuluş...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# Tapşırıqlar peşəkarlıqla yerinə yetirilir...



***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrin birlik, birləşmə və bölmələrində döyüş hazırlığı vəziyyətinin yoxlanılması üçün təlimlər keçirilir.***

Bu günlərdə "N" hərbi hissəsində də təlim keçirildi. "Həyəcan" siqnalı verilən kimi şəxsi heyət çıxışa hazırlaşdı, avtomobillərin, zirehli texnikaların mühərriki ətrafa səs saldı. Bir göz qırpımında hərbi hissənin ərazisini tərk edən döyüş texnikaları cəmləşmə rayonuna tərəf istiqamət götürdü...

Bizi təlim meydanında polkovnik Valeh Rəcəbov qarşıladı. O bildirdi ki, hərbi hissənin şəxsi heyəti təlimə uğurlu başladı. "Həyəcan" siqnalı verilən kimi zabit və əsgərlər üzərlərinə düşən tapşırıqları yerinə yetirməyə başladılar. Bu təlim bir daha göstərdi ki, zabit və əsgərlərimiz döyüş vərdişlərinə mükəmməl yiyələniblər. Çünki şəxsi heyət çöl çıxışını, cəmləşmə rayonunda yerləşməyi və mövqe tutmağı peşəkarlıqla bacarırdı.

Zabit Taleh Məmmədov da söhbət zamanı bildirdi ki, rabitəçilər də qarşılarına qoyulan tapşırıqları bacarıqla yerinə yetirdilər. Qısa müddətdə bölmələr arasında əlaqə yaradıldı. Əsgərlərimiz xidməti vəzifələrinə məsuliyyətlə yanaşırlar.

Təlimdə iştirak edən zabitlərdən Mehman Həsənov, Şahin Süleymanov, Ceyhun Məmmədov, Akif Azadov, Əliyaz Mirzəyev, Gülağa Cəlilov və başqaları ilə həmsöhbət oldum. Onlar təlim zamanı qarşılarında dayanan tapşırıqları bacarıqla yerinə yetirəcəklərini bildirdilər.

Təlim davam edir. Zabit və əsgərlər tapşırıqları yerinə yetimək üçün peşəkarlıq nümayiş etdirirlər...



# Hər addımda uğur var...

Sıralanmış dağlar və dərələr yaşıllığa bürünüb. Günəşin hərarətini hiss edən gül-çiçəklərin üzü gülür. Ətrafdakı gözəl mənzərə diqqət çəkir. Bu sətirlərlə tanış olan oxucu təsvir olunan ərazinin təlim sahəsi olduğunu yəqin ki, heç ağlına gətirməz. Amma, doğrudan da, bura təlim mərkəzidir. Zabit və əsgərlərimiz daim burada təlim keçib döyüş hazırlıqlarını artırırlar.

Təlimə cəlb olunmuş texnikalar xüsusi ayrılmış bir sahədə yerləşdirilib.

Hərbi hissənin şəxsi heyəti təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq iki həftədən çoxdur ki, mərkəzdə təlim keçir.

- Müharibədə uğur qazanmağın ən vacib şərti döyüş hazırlığının yüksək olmasıdır, - deyə mayor Vüqar Şıxlinski sözə başladı. - Buna nail olmaq üçün, təbiidir ki, müntəzəm təlim keçməli, hazırlığını artırmalısan. Təlimin keçirilməsində də məqsəd zabit və əsgərlərimizin döyüş hazırlığını yüksəltməkdir.

Qısa söhbətdən sonra keçilməz sahədən körpü salan yol bölüyünün istehkamçılarının yanına gəldik. Təlimin gərgin anları idi. İstehkamçılar verilmiş tapşırıqları vaxtında və qüsursuz yerinə yetirməyə çalışırdılar. Çox keçmədi ki, istehkamçılar körpünü quraşdırdılar. "UAZ" markalı avtomobil körpüdən asanlıqla, maneəsiz keçdi. Tapşırıq bütün texniki təhlükəsizlik qaydalarına əməl olunmaqla icra edildi. Hərbi hissə komandiri əsgərlərin hazırlığından razı qaldı. Deməli, təlim səmərəli keçib, şəxsi heyət döyüş vərdişlərinə mükəmməl yiyələnib.

Təlimdə daha çox müddətdən artıq həqiqi hərbi xidmət qulluqçu əsgərlər Sahil Həsənov və Elmir Bəylərli fərqləndilər. Qazanılan hər uğur isə sabahkı qələbədən xəbər verir.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Azərbaycan rəssamlarının əsərləri Luvrda nümayiş olunacaq



İyunun 12-də Parisin Luvr muzeyinin "Carussel de Louvre" qalereyasında təsviri sənət beynəlxalq festivalı keçiriləcək.

AZƏRTAC xəbər verir ki, festivalda bir çox ölkələrdən gələn məşhur rəssamlarla yanaşı, gənc istedadlar da öz əsərlərini nümayiş etdirəcəklər. Ekspozisiyada Azərbaycanın məşhur rəssamı Əsmər Nərimanbəyovanın "Asmar Art" adlı pavilyonunda Esmira Güləhmədova, Cəmalə Rəhmanlı və Zərifə Əsədovanın əsərləri sərgilənəcək. Sərgi 3 gün davam edəcək.

### Dərialtı çip qanı analiz edəcək



İsveçrənin Lozanna Federal Politexnik Məktəbinin alimləri dəri altına yerləşdirilən diaqnostik çip hazırlayıblar.

AZƏRTAC İKT.az saytına istinadla xəbər verir ki, real vaxt rejimində qanı analiz etmək və qanın tərkibindəki müxtəlif maddələr barədə məlumatı dərhal əldə etmək üçün dəri altına qalınlığı bir kvadratsantimetr olan mikroçipi implantasiya etmək kifayətdir.

Qurğu qanda xolesterin və qlükozanın səviyyəsini, eləcə də bəzi dərman preparatlarının tərkibini ölçə bilir. Mikroçipin daxilində idarəetmə bloku, altı sensordan ibarət dəst, smartfonla əlaqə üçün "Bluetooth"-adapter və induksion kontur yerləşir. Tədqiqatçılar artıq mikroçipi laboratoriya siçanları üzərində sınaqdan keçiriblər, insan üzərində sınaqlara isə yaxın beş ildə başlanılması nəzərdə tutulur.

### İtaliyada mafiya ilə mübarizə çərçivəsində xüsusi əməliyyat keçirilib




İtaliya karabinerləri iyunun 4-də mafiya ilə mübarizə çərçivəsində xüsusi əməliyyat keçirib.

AZƏRTAC Euronews telekanalına istinadla xəbər verir ki, paytaxt Romada, həmçinin Rietti, Frozinone, Akvila, Kataniya və Enna əyalətlərində keçirilən əməliyyatlar zamanı 44 nəfər həbs edilib.

Həbslər İtaliyanın paytaxtında biznesmenlərin və siyasətçilərin cəlb olunduğu mafiya strukturunun mövcudluğunu təsdiqləyən təhqiqatın əsasında aparılıb. İstintaqın versiyasına görə, söhbət miqrasiya axınının idarəçiliyi sahəsində dövlət maliyyəsi ilə əlaqəsi olan korrupsiya sistemindən gedir.

### Qananın paytaxtında baş verən partlayış nəticəsində 100-dək insan həlak olub



Qananın paytaxtı Akkra şəhərində yanacaqdoldurma məntəqəsində baş verən partlayış nəticəsində azı 96 nəfər həyatını itirib.

AZƏRTAC İnterfaks informasiya agentliyinə istinadla xəbər verir ki, partlayış yanacaqdoldurma məntəqəsində leysan yağışından daldalanan çox sayda insanın toplaşdığı zaman baş verib.

Partlayışın səbəbləri hələ ki, məlum deyil.

### FİFA-nın icraiyyə komitəsinin keçmiş üzvü rüşvət aldığını etiraf edib



FİFA-nın icraiyyə komitəsinin keçmiş üzvü Çak Bleyzer dünya çempionatlarına ev sahibliyi edəcək ölkələrin seçilməsi zamanı rüşvət aldığını etiraf edib.

AZƏRTAC Rusiyanın TASS informasiya agentliyinə istinadla xəbər verir ki, Ç.Bleyzer 2010-cu ildə dünya çempionatının Cənubi Afrika Respublikasında keçirilməsini dəstəklədiyi üçün də rüşvət aldığını bildirib.

"Mən və FİFA-nın icraiyyə komitəsinin digər üzvləri Cənubi Afrika Respublikasının 2010-cu ildə dünya çempionatının ev sahibi seçilməsi üçün rüşvət almağa razılaşmışdıq", - deyə Ç.Bleyzer qeyd edib.

### Avropada miqrantların əməyi yenə də amansızcasına istismar olunur



Aİ-nin Əsas İnsan Hüquqlarını Müdafiə Agentliyi iyunun 2-də Avropa İttifaqının daxilində və xaricində miqrantların əməyindən istifadə məsələlərinə dair hesabatını açıqlayıb. Agentliyin məlumatına görə, Avropa İttifaqında xarici işçilərin istismar qurbanı olmaq riski çox böyükdür. Məruzədə qeyd edilir ki, kənd təsərrüfatı, tikinti, qonaq biznesi, məişət xidmətlərinin göstərilməsi sahələrində, habelə zavodlarda istismar halları daha çox müşahidə edilir.

Agentlikdə qeyd edirlər ki, əmək istismarının qarşısını almağa imkan verməyən əsas problem Aİ-nin müxtəlif ölkələrində əmək qanunvericiliyinin müxtəlif olmasıdır.

Rəyi soruşulan hər beş nəfərdən biri belə problemlə qarşılaşıb. Məsələn, Britaniyada litvalı fəhlələr fermada çox pis, antisanitariya şəraitində yaşayırlar.

### Amerika alimləri şimpanzeyə yemək bişirməyi öyrədiblər



ABŞ alımləri şimpanzenin yemək bişirməyi öyrənmək üçün yetərincə intellektə malik olduğunu iddia edirlər.

AZƏRTAC İnterfaks informasiya agentliyinə istinadla xəbər verir ki, Harvard Universitetinin tədqiqatçıları eksperimentlərin gedişində şimpanzenin çiy deyil, odda bişmiş tərəvəzi yeməyə üstünlük verdiyini bildiriblər.

Bununla yanaşı, meymunlar yeməyin bişməsini səbirlə gözləyib. Adətən isə heyvanlar vəhşi təbiətdə qidanı tapdığı və ya tutduğu andaca yeyir.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

*18 İyun - Milli İnsan Hüquqları Günüdür*

# Azərbaycanda insan hüquqlarının təmin edilməsi dövlətin ali məqsədidir

***Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Bu münasibətlə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə ənənəvi olaraq mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan hüquqları aylığı keçirilir. Aylığın məqsədi insan hüquqları sahəsində əldə edilmiş nailiyyətləri, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir.***

Doğrudan da, hər bir dövlətin imicini onun insan hüquqlarına münasibəti, həmin dövlətdə insan hüquqlarının vəziyyəti müəyyən edir. Demokratiya və insan hüquqları bir-birilə qırılmaz sürətdə bağlıdır və biri digərini şərtləndirir. Yalnız cəmiyyətdə mövcud olan demokratik iqlim insan hüquqlarının qorunmasına təminat verir. Digər tərəfdən isə əsas insan hüquq və azadlıqlarının qorunması cəmiyyətdə demokratiyanın təşəkkülü və inkişafı üçün həlledici amildir.

1995-ci ildə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyilə Konstitusiyanın qəbul olunması siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratdı.

Azərbaycan Respublikasının Əsas Qanunu insan və vətəndaş azadlıqlarının, hüquqlarının təmin olunmasını dövlətin ali məqsədi elan etmiş, olkədə aparılan irimiqyaslı islahatlar üçün möhkəm qanunvericilik bazası yaratmağa imkan vermişdir.

Konstitusiyamızın 26-cı maddəsinə əsasən, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır.

Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. İstisnasız olaraq hakimiyyətin bütün qollarına şamil edilən bu öhdəlik insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək, onları müdafiə etmək və dəstəkləmək, eləcə də həyata keçirmək vəzifələrini ehtiva edir.

İnsan hüquqlarının təmin edilməsi ölkəmizdə gedən demokratik proseslərin tərkib hissəsi kimi daim dövlətin diqqət mərkəzindədir. Bu hüquqlar digər hüquqi normativ sənədlərdə də öz əksini tapır.



Azərbaycanda insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə Dövlət Proqramı hazırlanmışdır. Proqramda ölkəmizin insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ hüquqi aktların təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil problemləri üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər nəzərdə tutulur.

Son dövrlər Azərbaycanda vətəndaşların hüquq və azadlıqlarının təmini sahəsində bir çox beynəlxalq prinsiplər qanuni qüvvəsini almışdır.

Yeni əsrin ilk illərindən Azərbaycan dövləti insan hüquqlarının qorunması, hüquq və azadlıqlarının təmin olunması sahəsində ardıcıl tədbirlər həyata keçirməyə başlayıb. Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan "İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına" qoşuldu. Bu zaman o, öz üzərinə milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürdü.

Ümumiyyətlə, Ombudsman xidməti insan hüquqlarının müdafiəsi üçün ən təkmil hüquq-müdafiə strukturlarından biri sayılır. Bu institutun mövcudluğu ölkəmizin vahid dünya hüquq məkanına inteqrasiyası baxımından mühüm əhəmiyyətə malikdir.

Məlum olduğu kimi, demokratik, hüquqi dövlətin, qanunun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsaslarının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 27 dekabr 2011-ci il tarixdə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul olunub. İnsan hüquqları aylığı çərçivəsində Milli Fəaliyyət Proqramının müddəalarına əsaslanmaqla, ölkəmizin bütün regionlarında dövlət qurumları, QHT və KİV-lər, beynəlxalq təşkilatlar, icmalar tərəfindən insan hüquqlarının effektiv müdafiəsinə yeni mərhələ açan, əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda müxtəlif maarifləndirmə tədbirləri və müzakirələr təşkil olunur.

Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif təbəqələrinə aid olan şəxslərin - qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər və başqalarının hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması məqsədilə fəaliyyət istiqamətləri müəyyən olunur. Və bu baxımdan yoxsulluğun azaldılması, məşğulluğun təmin olunması, qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi və digər sahələrdə qəbul olunmuş müvafiq xüsusi dövlət proqramlarının icrasına Milli Fəaliyyət Proqramı kontekstindən yanaşılmalıdır.

Proqramda müəyyən edilmiş tədbirlərin yerinə yetirilməsi onun icrasına cavabdeh olan qurumların, vəzifəli şəxslərin məsuliyyət hissinin və tələbkarlığının daha da artırılmasını vacib edir.

Danılmaz həqiqətdir ki, dövlət orqanlarının səmərəli fəaliyyəti, qarşıda duran vəzifələrin və funksiyaların uğurla yerinə yetirilməsi, ilk növbədə yüksək ixtisaslı, müasir dünyagörüşünə malik, ədalətli, prinsipial və bacarıqlı kadrların fəaliyyəti sayəsində mümkündür. Hər kəs insan hüquqlarının səmərəli və etibarlı təmin olunması üçün ümumdövlət maraqlarını rəhbər tutmağa borcludur. Hər bir məmur ilk öncə insan hüquqlarının təmin olunmasının onun ümdə vəzifəsi olduğunu aydın başa düşməlidir.

Beləliklə, tam əsasla vurğulaya bilərik ki, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" ulu öndərimiz tərəfindən təməli qoyulmuş insan hüquqları sahəsində strategiyanın məntiqi davamı olmaqla, insan və vətəndaş hüquqlarının hərtərəfli həyata keçirilməsinə, onların icra mexanizmlərinin təkmilləşdirilməsinə zəmanət verir.

Şübhəsiz, aylıq çərçivəsində keçirilən tədbirlər ölkəmizdə insan hüquqlarının təbliğinə, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsinə və onların problemlərinin həllinə öz töhfəsini verir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Aslanın erkəyi, dişisi olmaz...



Hərb sənəti hər zaman kişi sənəti kimi sayılıb. Amma tarix boyu döyüşçü qadınlar olub və bu qadınların qəhrəmanlıqları haqqında çox yazılıb, çox deyilib. Müasir dövrdə Silahlı Qüvvələrimizdə xidmət edən zərif cinsin nümayəndələri döyüşçü qadınlarımızın sələfləri olduqlarını sübut edirlər.

Cəbhə bölgəsindəki "N" hərbi hissəsinə ezamiyyətim zamanı həmsöhbət olduğum kiçik çavuş Həqiqət Zeynalova da ömrünü ordu ilə bağlayıb, Vətənə xidməti özünə borc bilir.

- Qardaşlarım hərbçi olduqlarına görə orduya, hərbi formaya böyük həvəsim olub, - deyir Həqiqət xanım. - Sonbeşik qardaşım kursantdır, hərbi təhsil alır. Böyük qardaşım isə uzun müddətdir ki, gizir kimi xidmətdədir. Hər dəfə qardaşlarımın formasına həsədlə baxardım, "bir gün mən də forma daşıyacağam" deyirdim. Artıq bir ilə yaxındır ki, arzuma çatmışam. Hazırda qeyri-məxfi kargüzarlıqda operator vəzifəsində çalışıram. Hərbi hissəyə daxil və xaric olan bütün sənədlər, hərbi qulluqçuların məzuniyyət, ezamiyyət və digər xidməti sənədlərinin hazırlanması cavabdehliyi kargüzarlığın üzərindədir.

Kargüzarlığın məsul icraçısı olan Elçin Müseyibov 3 il döyüş postunda uğurlu xidmət etdikdən sonra bu vəzifəyə təyin olunub.

- Qadınlar xidməti tapşırıqların icrasına məsuliyyətlə yanaşır, hər bir işin vaxtında və düzgün yerinə yetirilməsinə çalışırlar,- deyə E.Müseyibov qadın həmkarı haqqında razılıqla danışır. "Aslanın erkəyi, dişisi olmaz" məsəli əslində daha çox hərbi xidmətdə olan qadınlara aiddir. Hazırda bizimlə xidmət aparan xanımlar hər bir Vətən oğlu kimi torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyir. Əslində onlar qarşıya qoyulan hərbi tapşırıqları məsuliyyətlə icra etməklə Vətənimizin hərbi qüdrətinin möhkəmlənməsinə öz töhfələrini verirlər.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**



***Son vaxtlar hərbi qulluqçular arasında qadınlar da layiqli yer tuturlar. Onlar hərbi xidmətə həvəslə gəlir, talelərini ordu həyatı ilə bağlayırlar.***

"N" hərbi hissəsində zabit Firdovsi Məmmədov qadın hərbi qulluqçularının xidmətdə fərqləndiklərini qeyd etməklə, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları Kəmalə Məmmədovanın və Dilşad Ələkbərovanın adlarını çəkdi. Hər iki qadın hərbçi xidmət etdikləri müddətdə özlərini çalışqan, intizamlı qulluqçu kimi tanıtmışlar.

Bir ildir xidmət etdiyini deyən kiçik çavuş Kəmalə Məmmədova operator kimi vəzifəsini yerinə yetirdiyini, Vətənə xidmətdən qürur hissi keçirdiyini söyləyir:

"Bu gün hər bir Azərbaycan vətəndaşı kimliyindən asılı olmayaraq Vətən uğrunda döyüşlərə hazır olmalıdır", - deyə Kəmalə bildirir.

Kiçik çavuş Dilşad Ələkbərova da içdiyi Vətən andına həmişə sadiq olacağını, şərəflə xidmət edəcəyini söylədi. İnanırıq ki, Kəmalə və Dilşad nümunəvi xidmət etməklə, göstərilən etimadı doğruldacaqlar.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

*Hərbi vətənpərvərlik*

# Vətənə övladlıq borcunu vermək üçün...

***Gələcəyimizin əsgərləri olacaq şagirdləri hərbi hissə və birləşmələrdə görəndə ürəyimiz açılır. Onlarda hərbi biliklərə, silah və hərbi texnikalara maraq böyükdür.***

Budur, Tofiq Məmmədov adına 239 nömrəli orta məktəbin şagirdləri hərbi biliklərə əməli surətdə yiyələnmək üçün "N" hərbi hissəsinə gəliblər.

- Məktəblilər hərbi hissəmizdə tez-tez olurlar, - deyə polkovnik-leytenant Ziyad Tağıyev bildirdi. - Biz onların hərbi biliklərə yiyələnmələri üçün hər cür şərait yaratmağa çalışırıq. Gizir Niyazi Alıyev şagirdlərə avtomat silahının yığılıb-sökülməsi qaydalarını, eləcə də, başqa zəruri hərbi bilik və vərdişləri öyrədir. Məqsədimiz budur ki, sabahımızın əsgərləri hazırlıqlı və peşəkar olsunlar. Vətənə olan övladlıq borclarını layiqincə versinlər.

- Məktəbimizin direktoru Sədaqət Əzimova şagirdlərin hərbi vətənpərvərlik ruhunda böyümələrini daim diqqət mərkəzində saxlayır, - deyə gənclərin çağırışaqədərki hazırlıq fənn müəllimi Nizaməddin Məsmalıyev təəssüratlarını bizimlə bölüşdü. - Komandanlıq hərbi hissədə bizim dərs və məşğələ keçməyimiz üçün hərtərəfli şərait yaradır. Şagirdlərimiz də məşğələdə həvəslə iştirak edir, hərbi sahəyə maraq göstərirlər. Əminəm ki, gələcəkdə onların aralarından yaxşı hərbçilər çıxacaq. Belə görüş və təmaslar məktəblilərin vətənpərvər ruhda böyümələrinə müsbət təsir göstərir.

Məşğələdə həvəslə iştirak edən şagirdlərdən Sənan Şirinzadə, Asiman Mansurlu, Məhəmməd Vəliyev və başqaları ilə görüşüb söhbət etdim. Onlar gələcəkdə Vətənə layiqli əsgər olacaqlarını bildirdilər.

**V.MƏMMƏDQULUOĞLU,**
**"Azərbaycan Ordusu"**

*Düşüncələr*

# Naməlum əsgər

***Qələmim həmişə üzüyola qulum olub, heç zaman düşüncələrimə xəyanət eləməyib, heç zaman xalqımızdan, torpağımızdan uzaq düşməyib...***

Anamın, onun yaşdaşlarının söhbətlərindən eşitmişəm ki, o illərdə kəndin kəndliyi, şəhərin şəhərliyi dəyişmişdi, sümüyü bərkiməmiş uşaqlar müharibə dövründə atalarının əvəzinə yer şumlayırdı, taxıl biçirdi, ot çalırdı, bir sözlə, hər kəs gücü çatan işin qulpundan yapışırdı...

Hamının gözləri yollardaydı. Müharibənin nə olduğunu dərk edənlər yuxusunu itirmişdi. İsa Hüseynovun "Saz" və "Tütək səsi" povestləri əsasında çəkilmiş "Tütək səsi" bədii filmində xalqı təmsil edən İsfəndiyar kişi kimi...

Neçəsi əlsiz qayıtdı, neçəsi ayaqsız. Neçəsi son nəfəsinəcən canında qəlpələr gəzdirdi. Həlak olanların neçəsinin harda dəfn olunduğu məlum deyil. Neçəsi 70 ildi adsız qəhrəman kimi anılır...

5 il davam edən müharibə qələbəmizlə başa çatdı...

Yeniyetməliyimdə ana gördüm, oğluna görə göndərilmiş "qara kağız"a inanmadı, son nəfəsinəcən oğlunu gözlədi...

Yeniyetməliyimdə ata gördüm, müharibədən söz düşəndə beş-üç kəlmə dodağında közə dönərdi: "Əsgəriydi, vuruşurdu, həlak olub. Qəbrinin yerini bilsəydim..."...

Yeniyetməliyimdə bacı gördüm, müharibədən qayıdanların hamısına qardaş deyirdi...

Naməlum əsgərlər də həmişə ehtiramla yad edilib. Ana görmüşəm naməlum əsgərin abidəsini oğul əvəzi bağrına basıb. Ana görmüşəm bu abidənin başdaşına dönüb...

"Ceyrankeçməz"i keçərkeçməz "Türkün qəbri"nə sarı boylanmışam. Ürəyim məni ora çəkib. Uğurum gözümdən düşüb. Getmişəm. Dalğalanan bayraqlar ürəyimi dalğalandırıb (yeri gəlmişkən, Azərbaycanın neçə-neçə rayonunda türk şəhidlərinin məzarlığı var). O anlarda 1915-ci ildə Çanaqqalada həlak olan, adı-soyadı bilinməyən azərbaycanlılar düşüb yadıma. Bir tarixi həqiqətə sığınmışam: adı-soyadı bilinməsə də, o türk qəhrəman bizim, Çanaqqalada həlak olan o azərbaycanlı qəhrəman Türkiyə türkünün qardaşıdı! Türkiyədə də, Azərbaycanda da naməlum əsgər (əsgərlər) qədərsiz ehtiramla yad edilir. Ediləcək də!

Əlim qələm tanıyalı naməlum əsgər də, naməlum qəhrəman da düşüncələrimin sakini olub. "Bir ömür borcluyuq qəhrəmanlara" düşüncəsiylə gecələrimin səhərinə yol getmişəm. Bu yol məni günümüzə gətirib. O naməlum qəhrəmanları Qarabağ müharibəsində şəhid olanlarımız da ehtiramla yad edirdi. Kimi əmisindən, kimi babasından, kimi dayısından danışırdı. Həm də sezilməsi çətin olmayan sızıltı içində qürrəylə danışırdı. Yusif Mirzəyev deyirdi: "Onların ömrünü atalarımız davam etdirdi. Biz atalarımızın amalının daşıyıcısı olduq. Qarabağ uğrunda gedən döyüşlərdə həlak olanlarımızın ömrünü davam etdirəcək oğullar böyüyür". Müharibə iştirakçısı olan kişilərin yanında naməlun əsgər kəlməsini eşidən dillləndiyinə peşman olurdu: "Niyə naməlum olur, ayə? Hamısı kişi kimi vuruşdu, kişi kimi! "Dovşanı arabayla tutan" Sovet hökuməti onların adını tapa bilmirmi? İstəsə tapar...". Əlini ürəyinin üstünə qoyardı; "Adları dilimizdədi, özləri burdadırlar...". Eyzan İsa Hüseynovun "Quru budaq" povestində Tahir müəlllm haqqında deyildiyi kimi...

Naməlum əsgərlərin, naməlum qəhrəmanların məzarı uyuduğu torpaq deyil, onun qoruduğu torpağa dəruni sevgisi olanların ürəyidi...

Sizdən almalıyıq
tarix dərsini,
O illər tarixdi,
tarixə dönüb.
O vaxtdan bu yana
ulduz da, ay da,
Başına dolanıb,
başına dönüb.

Naməlum olmayıb
qəhrəmanlığın,
Nələr elədiyin
bəllidir bizə.
Tarix gizlətsə də
ad-soyadını,
Naməlum qəhrəman
deyirik sizə.

Tarix yaratdınız,
düşübdür dilə,
Tarixi yaşatmaq
deyildir asan.
Tarix yaratdınız,
bu tarix ilə
Məlum qəhrəmanlar
sırasındasız!..

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Birinci Avropa Oyunlarının yayım məsələləri yüksək səviyyədə həll olunur

Dünyanın diqqət mərkəzində olan birinci Avropa Oyunlarının yayım məsələləri ən yüksək səviyyədə həll edilir. Oyunlar bütün dünyada geniş yayımlanacaq. "Bakı-2015" birinci Avropa Oyunları Əməliyyat Komitəsinin Beynəlxalq İdman Teleyayımı Şirkəti ilə imzaladığı saziş idmansevərlərə bu mötəbər tədbiri televiziya vasitəsilə və onlayn qaydada izləmək imkanı təqdim edir. Birinci Avropa Oyunları zamanı Beynəlxalq İdman Teleyayımı Şirkəti 800 saatlıq yüksək keyfiyyətli teleyayım həyata keçirəcək. Eyni zamanda, hər gün yarım saat olmaqla yarışların əsas məqamlarına dair iki icmal hazırlayacaq.

## "Bakı-2015"-ə qatılacaq idmançıların tərcümeyi-halları Oyunların saytında yerləşdirilib



"Bakı-2015" birinci Avropa Oyunlarında iştirak edəcək 6 min idmançının tərcümeyi-halı yarışın rəsmi internet səhifəsində və mobil tətbiqetməsində yerləşdirilib. AZƏRTAC "Bakı-2015"-ə istinadla xəbər verir ki, bu məlumatları rəsmi mobil tətbiqetməyə və ya "az.baku2015.com" saytında yerləşdirilən "İdmançılar" bölməsinə daxil olmaqla əldə etmək mümkündür. Həmin səhifələrdə idmançıların təcrübəsi, onlar haqda statistik məlumatlar və s. barədə informasiya əldə etmək olar. Həmçinin atletlərin məşğuliyyəti, böyük yarışlarda qazandıqları rekordlar haqda da ətraflı məlumat yerləşdirilib.

## Birinci Avropa Oyunları zamanı Azərbaycan idmançılarının şərəfinə "Zəfər günləri" təşkil olunacaq




Birinci Avropa Oyunlarının keçirildiyi günlərdə - iyunun 14-dən 29-dək Milli Olimpiya Komitəsi (MOK) yarışların qalibləri və mükafatçıları olan Azərbaycan idmançılarının şərəfinə "Zəfər günləri" adlı xüsusi tədbir keçirəcək. AZƏRTAC xəbər verir ki, MOK tərəfindən ilk dəfə həyata keçirilən bu layihə zamanı medallar qazanan atletlərimiz, onların ailə üzvləri, dostları, idman mütəxəssisləri və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə Komitənin inzibati binasında görüşlər təşkil ediləcək. Zəfər qazanan idmançılarımıza MOK-un xüsusi mükafatları veriləcək.

Tədbir KİV nümayəndələri üçün xüsusi əhəmiyyət daşıyacaq. Uğur qazanan atletlərimizdən, onların ailə üzvlərindən eksklüziv müsahibələr almaq üçün KİV-lər üçün ayrılan guşədə şərait yaradılacaq.

## Ukraynanı birinci Avropa Oyunlarında təmsil edəcək azərbaycanlı idmançı ilə görüş keçirilib



Ukraynanı "Bakı-2015" birinci Avropa Oyunlarında təmsil edəcək idmançılar arasında bu ölkədəki Azərbaycan diasporunun fəal nümayəndələrindən olan Fyodor Xaşalov da var. Əslən Zaqatala rayonundan olan, hazırda İvano-Frankovsk şəhərində yaşayan Fyodor Xaşalov iki dəfə Avropa, bir dəfə dünya çempionu olub. Ukraynanı dəfələrlə beynəlxalq yarışlarda təmsil etmiş Fyodor Xaşalov hazırda İvano-Frankovskda məşqçi kimi çalışır. Fyodor Xaşalov bodibildinq üzrə yarışlarda gücünü sınayacaq. İlk Avropa Oyunlarında idmanın bu növü üzrə sınaq yarışlarının keçirilməsi nəzərdə tutulur.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Baş gizir Hüseynov Gəray Həsənağa oğluna 1998-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Allahverdiyev Təmkin Adil oğluna 2012-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 489
Nüsxə 4600